**Mayın 5-də Bakı Dövlət Universiteti (BDU) və Yeni Azərbaycan Partiyasının (YAP) birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü və "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Ulu Öndər Heydər Əliyevin siyasi irsi: qüdrətli dövlətin əsasları" mövzusunda konfrans keçirilib.**



# "Ulu Öndər Heydər Əliyevin siyasi irsi: qüdrətli dövlətin əsasları"






YAP Mərkəzi Aparatından verilən məlumata görə, əvvəlcə Ulu Öndər Heydər Əliyevin büstü ziyarət olunub, önünə gül dəstələri düzülüb.

Konfrans iştirakçıları BDU-nun Heydər Əliyev muzeyi və Heydər Əliyev lektoriyasını da ziyarət ediblər.

Konfransda əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ümummilli Lider Heydər Əliyevin mənalı ömür yolu və zəngin dövlətçilik irsindən bəhs edən videosüjet nümayiş olunub.

BDU-nun rektoru Elçin Babayev konfransın Azərbaycan Respublikasının Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu ilk Konstitusiyasının 30, tariximizə qızıl hərflərlə yazılmış böyük Qələbəmizin 5 illiyi münasibətilə, "Konstitusiya və Suverenlik İli"ndə keçirilməsinin xüsusi rəmzi məna daşıdığını bildirib.

Rektor diqqətə çatdırıb ki, Ulu Öndərin hər zaman sonsuz diqqət və qayğı ilə yanaşdığı, "Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" kəlamı ilə adını, şöhrətini zirvələrə ucaltdığı, eyni zamanda "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdığı Bakı Dövlət Universitetinin kollektivi də bütün xalqımız kimi, hər zaman Ümummilli Liderin əziz xatirəsini böyük hörmət və ehtiramla yad edir, onun zəngin siyasi irsinin tədqiqi və gənc nəslə ötürülməsi istiqamətində əlindən gələni əsirgəmir. BDU-da Heydər Əliyev irsinin öyrənilməsi və gələcək nəsillərə ötürülməsi istiqamətində hərtərəfli fəaliyyət aparılır. Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ilində universitetin 102 əməkdaşı və 100-dən çox tələbəsi YAP sıralarına qəbul edilib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov isə bildirib ki, Ümummilli Lider Heydər Əliyev zəngin dövlətçilik irsi və mütərəqqi ideyaları ilə əbədiyaşarlıq qazanıb. Onun sözlərinə görə, müdrik dövlət xadimi sovet dövründə Azərbaycan SSR-in rəhbəri kimi respublikamızın intibahına nail olub, gələcək müstəqilliyinin əsaslarını formalaşdırıb: "Heydər Əliyevin həmin dövrdə xalqımızın milli-mənəvi dəyərlərinin qorunması istiqamətində böyük siyasi-ideoloji əhəmiyyətə malik fəaliyyəti, o cümlədən Azərbaycan dilinin respublika Konstitusiyasında dövlət dili kimi təsbit edilməsinə nail olması və azərbaycançılıq ideologiyasının təşviqini daim diqqətdə saxlaması bu baxımdan xüsusi qeyd edilməlidir".

Tahir Budaqov qeyd edib ki, 1992-ci il noyabrın 21-də Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması və xalqın öz liderinin ətrafında sıx birləşməsi isə dövlətçilik tariximizin dönüş nöqtəsi - mühüm bir taleyüklü mərhələnin başlanğıcı olub. O bildirib ki, ölkədə xaos və anarxiyanın hökm sürdüyü, qonşu Ermənistanın ozamankı geosiyasi şəraitdən və respublikanın ağır vəziyyətdə olmasından istifadə edərək torpaqlarımızı işğal etdiyi bir vaxtda xalqın çağırışı ilə 1993-cü il iyunun 9-da Bakıya qayıdan və 15-də Ali Məclisin Sədri, oktyabrın 3-də isə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev Azərbaycanı ciddi siyasi və iqtisadi problemlərdən, böhran vəziyyətindən xilas edərək inkişaf yoluna çıxarıb və ölkəmizə real müstəqillik qazandırıb: "İctimai-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin, milli birliyin təmini, ardıcıl sosial-iqtisadi və siyasi-hüquqi islahatların reallaşdırılması, müstəqillik dövründə ilk parlament seçkilərinin keçirilməsi və müstəqillik dönəminin ilk Konstitusiyasının qəbul edilməsi Azərbaycanın demokratik inkişaf yolunda əmin addımlarla irəliləməsini təmin edib. Bununla yanaşı, milli maraqlara əsaslanan uğurlu xarici siyasət kursu dünya birliyindən təcrid olunmuş Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqelərinin möhkəmlənməsini və etibarlı tərəfdaş kimi tanınmasını şərtləndirib".

YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, siyasi varisliyin təmin olunması Ulu Öndərimizin uzaqgörənliyinin ən böyük təzahürüdür: "Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin Heydər Əliyev yolunu tarixi ənənələrə, milli-mənəvi dəyərlərə, dövlət maraqlarına və çağdaş reallıqlara uyğun davam etdirməsi nəticəsində misilsiz nailiyyətlər əldə edildi, xalq-iqtidar birliyi daha da möhkəmləndi, Azərbaycan regionda lider dövlətə çevrilərək dünyada önəmli tərəfdaş kimi tanındı, nəhayət, öz ərazi bütövlüyü və suverenliyini tam bərpa etməklə Zəfər zirvəsinə yüksəldi".

Tahir Budaqov vurğulayıb ki, cəmiyyətin bütün təbəqələrini təmsil edən vətənpərvər insanlar kimi, Bakı Dövlət Universitetində çalışan qabaqcıl elm xadimləri, ziyalılar da Ulu Öndərin ideyalarının reallaşmasında mühüm rol oynayıb, Prezident İlham Əliyevin milli maraqlara əsaslanan siyasətinə qətiyyətli dəstək ifadə ediblər: "Ümummilli Liderimiz məzunu olduğu Bakı Dövlət Universitetinin fəaliyyətinə hər zaman böyük önəm verib, BDU-nun 50, 60, 75 və 80 illik yubileylərində iştirak edərək, bu ali təhsil ocağını "Azərbaycan xalqının milli sərvəti" adlandırıb. Tarixi ənənələrə və zəngin elmi nailiyyətlərə malik olan Bakı Dövlət Universitetinin elm və təhsil sahəsi ilə yanaşı, siyasi proseslərdə də fəal rol oynayan, prinsipial mövqeyi və sağlam əqidəsi ilə fərqlənən, milli məsələlərdə və tarixi-siyasi məsuliyyət anlarında öz sözünü deyən nüfuzlu alimləri partiyamızın sıralarında təmsil olunurlar. Yeni Azərbaycan Partiyasının üzvü olan elm xadimlərinin dövlətçilik, azərbaycançılıq, vətənpərvərlik prinsipləri əsasında çalışmaları, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmələri Heydər Əliyev irsinə və ideyalarına sədaqət nümunəsi olmaqla yanaşı, Azərbaycanın inkişafına, qarşıda duran hədəflərin reallaşmasına önəmli töhfədir".

Sonra YAP sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Daha sonra YAP sıralarına yeni qəbul olunmuş BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin müəllimi Arzu Orucova və Tarix fakültəsinin II kurs tələbəsi Ayan İsmayılova çıxış ediblər.

Yeni Azərbaycan Partiyasının Himni səsləndiriləndən sonra tədbir BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin hazırladığı bədii hissə ilə davam edib.

**Xaqani KOSAYEV,**
**"Respublika".**